

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 155 (21.816)

17 avqust 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 16 avqust tarixli Sərəncamı ilə döyüş əməliyyatları zamanı və xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları və mülki işçiləri təltif edilmişlər.

Təltif olunanlar arasında “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının hərbi qulluqçuları da vardır.

**Tağıyev Abbas Oruc oğlu – mayor**

**Bədəlov Fərhad Hacı oğlu – mayor**

**Rüstəmov Əli Mübariz oğlu – kapitan**

“Hərbi xidmətlərə görə” medalı ilə təltif edilmişlər.

## 2017-ci ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2017-ci ilin yanvar-iyul aylarında 1 milyard 458 milyon 392 min 300 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 5,2 faiz artaraq 3240,2 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 604 milyon 952 min manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,2 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində 2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 568 milyon 505 min 800 manat dəyərində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,1 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyanın 535 milyon 220 min 500 manatı və ya 94,1 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2017-ci ilin yanvar-iyul aylarında 223 milyon 716 min 400 manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 3,4 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublika üzrə diri çəkidə 12452 ton ət, 58589,8 ton süd istehsal edilmiş, bir il öncəki göstərici ilə müqayisədə ət istehsalı 2,2 faiz, süd istehsalı 1,3 faiz artmışdır.



* * *

Bu ilin ötən dövrü ərzində informasiya və rabitə xidmətlərinin dəyəri 29 milyon 246 min manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 1,9 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 24 milyon 122 min 900 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,8 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 13 milyon 266 min 200 manat məbləğində kreditlər verilmişdir. Verilmiş kreditlərin 2 milyon 712 min 800 manatı və yaxud 20,4 faizi qısamüddətli, 10 milyon 553 min 400 manatı və yaxud 79,6 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 avqust 2017-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 61569-a çatmışdır ki, bunun da 52424-ü və ya 85,1 faizi aktiv hesablardır. 2017-ci ilin yanvar-iyul aylarında açılmış 18726 bank hesabının 18663-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 avqust 2017-ci il tarixə 1253-ə çatmışdır.

* * *

2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 4 milyon 448 min 700 manat olmuşdur ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 27,7 faiz çoxdur.

* * *

Cari ilin ötən dövrü ərzində muxtar respublikaya 224 min 936 nəfər turist gəlmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz və ya 8652 nəfər çoxdur.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikada 238 milyon 339 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1,3 faiz artaraq 220 milyon 484 min ABŞ dolları, idxalın həcmi 23,3 faiz azalaraq 17 milyon 855 min 600 ABŞ dolları təşkil etmiş, 202 milyon 628 min 400 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 1 milyard 10 milyon 750 min manat, onun hər bir nəfərə düşən məbləği isə 0,2 faiz artaraq 2245,6 manat təşkil etmişdir.

* * *

Bəhs olunan dövrdə muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 414,1 manat təşkil etmiş və bu göstərici 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz artmışdır.

* * *

1 iyul 2017-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 4139 nəfər və ya 0,9 faiz artaraq 450 min 772 nəfər təşkil etmişdir.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

## Ədliyyə Nazirliyində işləmək istəyənlər imtahan veriblər



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi aparatında vakant vəzifələrin tutulması üçün elan edilən müsabiqənin test imtahanı keçirilib. Müsabiqədə 12 vakant vəzifənin tutulması üçün sənəd təqdim edən 37 namizəddən 35-i test imtahanında iştirak edib.

İmtahan başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilib. Ədliyyə Nazirliyi aparatında vakant vəzifələri tutmaq istəyənlərə ixtisas üzrə 80, məntiqi təfəkkürün yoxlanılması üzrə 20 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib, onları cavablandırmaq üçün 3 saat vaxt verilib. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. İmtahan qurtardıqdan sonra namizədlərə cavab kartı və imtahanın nəticəsinə dair arayış təqdim olunub. İmtahanda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları müşahidəçi kimi iştirak ediblər.

Qeyd edək ki, imtahanda keçid balını toplayan namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanıblar.

✍ **Nail ƏSGƏROV**

## Əhalinin məşğulluğu daim diqqət mərkəzində saxlanılır

***Əhalinin maddi rifah halının yüksəlişi muxtar respublikamızın davamlı iqtisadi inkişafı ilə birbaşa bağlıdır. Bu inkişafı xarakterizə edən əsas xüsusiyyətlərdən biri əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsidir. Bu baxımdan muxtar respublikada təşkil olunan əmək yarmarkaları mühüm məşğulluq tədbiri kimi əhəmiyyətli rol oynayır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası ilə bağlı Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən 2017-ci ilin iyul-avqust aylarında əmək yarmarkaları keçirilib. Muxtar respublika ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda olan boş iş yerləri məşğulluq mərkəzləri tərəfindən yarmarkaya çıxarılıb, kütləvi informasiya vasitələrində əmək yarmarkalarının keçirilməsi barədə məlumatlar verilib.

Keçirilən əmək yarmarkalarına 231 idarə, müəssisə və təşkilatdan, o cümlədən 63-ü özəl sektor olmaqla, 1669 boş iş yeri təqdim edilib. Həmin boş iş yerlərindən 1274-ü dövlət, 200-ü qeyri-dövlət müəssisələrinə aid olub.

Əmək yarmarkalarında 96-sı dövlət, 89 nəfəri isə özəl sahədə olmaqla, ümumilikdə, 185 nəfər daimi işlə təmin edilib. Onlardan 176 nəfəri fəhlə, 9 nəfəri isə xidmət sahələrində çalışacaqlar.

Gənclər və sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunun təmin olunması da diqqət mərkəzində saxlanılıb. Onlardan 54 nəfəri 29 yaşadək gənclər, 1 nəfəri isə sağlamlıq imkanları məhdud olan şəxslərdir.

Keçirilən əmək yarmarkalarında 4 nəfər peşə hazırlığı kurslarına cəlb edilib. Dövlət proqramının icrası bundan sonra da diqqət mərkəzində saxlanılacaqdır.

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti*

***Muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmini məqsədilə müxtəlif dövlət proqramlarında qarşıya qoyulmuş vəzifələrin uğurla icra edilməsi bu məsələnin kompleks həllinə imkan verib.*** Bu sahədə əldə edilmiş nailiyyətlər bu vacib sahənin inkişafına göstərilən diqqətin nəticəsidir.

Şübhəsiz, ərzaq təhlükəsizliyi baxımından taxılın vaxtında toplanılması

## Ərzaq təhlükəsizliyi təmin olunur

Regionda əlverişli biznes mühitinin yaradılması, ərzaq məhsullarının istehsalı üzrə sahibkarlığın inkişaf etdirilməsi, dövlət investisiyalarının aqrar bölmənin infrastruktur təminatının yaxşılaşdırılmasına yönəldilməsi, suvarılan torpaq sahələrinin genişləndirilməsi və su ehtiyatlarından səmərəli istifadə, yeni kənd təsərrüfatı texnikalarının alınıb gətirilərək güzəştli şərtlərlə torpaq mülkiyyətçilərinə verilməsi, bu baxımdan çox əhəmiyyətlidir. Sevindirici haldır ki, bu gün ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə ciddi nəzarət, ərzaq məhsullarının satış-tədarük bazalarının və satış mərkəzlərinin, taxıl və soyuducu anbarların, qablaşdırma müəssisələrinin yaradılmasının dəstəklənməsi istiqamətində görülmüş genişmiqyaslı işlər artıq öz nəticəsini verməkdədir. Hazırda Naxçıvan bütün növ əsas ərzaq məhsulları ilə daxili tələbatını ödəyir.

Muxtar respublikamızda strateji sahə olan taxılçılığa ciddi diqqət yetirilir. Yeni suvarma şəbəkələrinin qurulması və meliorativ tədbirlərin görülməsi hesabına taxıl əkini sahələri genişləndirilib. Son məlumatlara əsasən, ümumilikdə, cari ilin məhsulu üçün muxtar respublikada 31 min 632 hektar taxıl əkilib. Əkin zamanı keyfiyyətli və məhsuldar toxum sortlarından istifadə edilməsi, sahələrdə vaxtlı-vaxtında suvarma və aqrotexniki qulluq işləri görülməsi nəticəsində taxıl zəmilərindən 93 min 419 ton məhsul toplanılıb. Zəmilərin orta məhsuldarlığı 29,5 sentnerdir. Muxtar respublikanın iri taxıl istehsalçıları olan Şərur, Babək, Kəngərli və Culfa rayonlarında taxılçılıqda əldə edilmiş nailiyyətlər... qədər onun itkisiz şəkildə anbarlanması, emalı məsələləri də vacib amildir. Bu baxımdan muxtar respublikada taxıl qəbulu, emalı və saxlanması üçün Naxçıvan Muxtar Respublikası “Bərəkət Buğda Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətində yaradılmış şərait bu strateji sahəyə göstərilən dövlət qayğısından xəbər verir. 70 nəfərdən çox insanın çalışdığı və ən son texnoloji avadanlıqlarla təmin edilmiş müəssisədə hər il olduğu kimi, cari ilin bu dövründə də əsas diqqət sahələrdən tədarük olunan taxılın qəbuluna yönəldilib. Burada mövcud olan 27 min ton tutuma malik uzunmüddətli və 20 min ton tutuma malik qısamüddətli taxıl ehtiyatı anbarları məhsul tədarükündə mühüm rol oynayır.

Cəmiyyətdən aldığımız məlumata görə, burada qəbul olunan taxılın keyfiyyəti laboratoriya şəraitində yoxlanılır. Onu da bildirdilər ki, bu il anbarlara tədarük olunan 1 kiloqram buğda üçün 30 qəpik, arpa üçün isə 25 qəpik ödənilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası “Bərəkət Buğda Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində un və yem fabriki, habelə yarma istehsalı sahəsi də fəaliyyət göstərir ki, bu da məhsul istehsalında çoxçeşidliliyi təmin edir.

Hər il olduğu kimi, bu il də taxıl biçininin mütəşəkkil qaydada aparılması, məhsulun qəbulu, saxlanması və emalı üzrə həyata keçirilən işlər muxtar respublikamızda daxili bazarın tələbatının tam şəkildə ödənilməsinə və ərzaq təhlükəsizliyinin təmin olunmasına zəmanət verir.

✍ **Əli CABBAROV**



***Babək rayonunun tarixində əlamətdar hadisələr çoxdur. Rayon sakinləri isə 1978-ci il oktyabr ayının 23-nü ən əlamətdar gün hesab edirlər. Çünki bu bölgəmiz həmin tarixdə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb.***

***Ötən dövr ərzində Babək rayonu hərtərəfli qayğı ilə əhatə olunub, sürətli inkişaf yolu keçib. Rayon mərkəzi, kənd yaşayış məntəqələri muxtar respublikada həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri, reallaşdırılan böyük layihələr hesabına öz simasını tamamilə dəyişib, Babək müasir Azərbaycan rayonuna çevrilib. Babək rayonu 2017-ci ilin birinci yarısını da böyük nailiyyətlərlə başa vurub. Həmin nailiyyətlərin arxasında dayanan başlıca amil insana qayğı olub. Bu yazını hazırlayarkən rayon sakinləri ilə həmsöhbət olduq. Onlar da yaradılan şəraitdən razılıqlarını bildirdilər. Sakinlərin söhbətini bir qədər sonra sizə təqdim edəcəyik.***

*İnkişaf edən bölgələrimiz*

# Hərtərəfli dövlət qayğısının ünvanı




### *Rayonun quruculuq xəritəsi*

Bu ilin yanvar-iyun aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 33891,2 min manat və ya 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın dəyəri bir il öncəyə nisbətən 1,4 faiz artaraq 32697,8 min manat təşkil edib.

Belə ki, rayon mərkəzi olan Babək qəsəbəsi və 23 kənd kompleks şəkildə abadlaşdırılıb. Bu yaşayış məntəqələrində kənd və xidmət mərkəzləri istifadəyə verilib, mərkəzi yollara asfalt salınıb, kənddaxili yollara qum-çınqıl döşənib, beton kanallar çəkilib, həmin ərazidə əhaliyə məxsus hasarlar dövlət hesabına tikilib, elektrik, qaz və rabitə xətlərində təmir və yenidənqurma işləri aparılıb.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar 2017-ci ilin birinci yarısında bir sıra işlər görülüb.




Belə ki, Babək Rayon İcra Hakimiyyətinin inzibati binası əsaslı yenidən qurulmadan sonra istifadəyə verilib. Bununla yanaşı, binanın həyətində geniş abadlıq işləri aparılıb, gülkarlıqlar salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb. Nehrəm kəndində Heydər Parkı istifadəyə verilib.

Payız kəndində tam orta məktəb binasının, kənddaxili yolların yenidən qurulması, kənd və xidmət mərkəzlərinin, su dəyirmanının tikintisi, yol kənarlarına suaxıdıcı kanalların çəkilişi, həmçinin sel sularının qarşısının alınması məqsədilə kanalların tikintisi, piyada və maşın keçidi üçün körpülərin təmir işləri, sərhəd kəndi olan Gərməçataqda tam orta məktəb binasının yenidən qurulması, kənd və xidmət mərkəzlərinin tikintisi, həmçinin kənddaxili yolların abadlaşdırılması işləri davam etdirilir.

Cəhri-Buzqov avtomobil yolundan Gərməçataq kəndinədək 6 kilometr uzunluğunda avtomobil yoluna qum-çınqıl qatı verilərək torpaq işləri başa çatdırılıb, selötürücülər və yeni körpü tikilib, suötürücü borular salınıb.

Şıxmahmud-Xəlilli kəndlərini Naxçıvan şəhərinin Xətai məhəlləsinə birləşdirən yolda, Nehrəm kəndində "İmamzadə" türbəsində yenidənqurma işləri, Yarımca, Nəzərabad və Yuxarı Uzunoba kəndlərində müasir üslubda mərasim evlərinin tikintisi davam etdirilir.

Babək qəsəbəsi və ətraf kəndlərin içməli su, kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində rayonun Babək qəsəbəsi, Nehrəm, Şəkərabad, Araz kəndlərində içməli su və kanalizasiya xətlərinin, Badaşqan kəndində isə içməli su sistemlərinin çəkilişi və Yarımca kəndində içməli su xətti üçün su anbarının, həmçinin Şıxmahmud və Xəlilli kəndlərində içməli su və kanalizasiya xətlərinin tikintisi davam etdirilir.

Bəhs olunan dövrdə Babək qəsəbəsində və rayonun ayrı-ayrı kəndlərində içməli su xətlərində təmir-bərpa işləri aparılıb, bəzi yaşayış məntəqələrində müxtəlifölçülü plastik və metal borularla yeni içməli su xətti çəkilib.

Rayon ərazisində qrunt sularının qarşısını almaq məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Belə ki, rayon mərkəzinin "Qoşadizə" məhəlləsində, Cəhri və Xəlilli kəndlərində, Hacıvar kəndinin yaxınlığındakı dövlət fondunda qapalı drenaj kanalı, Cəhri kəndində, Hacıvar kəndinin yaxınlığındakı dövlət fondunda açıq drenaj kanalı çəkilib. Nehrəm və Çeşməbasar kəndlərində açıq drenaj kanalı təmir edilib.

2017-ci ilin birinci yarısında rayon Elektrik Şəbəkəsi tərəfindən rayonun qəsəbə və kəndlərində yeni məhəllələrə elektrik xətləri çəkilib, xətlərdə cari və əsaslı təmir işləri aparılıb, 3 ədəd yeni transformator yarımstansiyası, 107 yeni abonentə sayğac quraşdırılıb, 1 ədəd yanmış transformator yenisi ilə əvəz edilib, 24 10/0,4 kilovoltluq yarımstansiya təmir olunub.

Qəsəbə və kəndlərdə yeni tikilmiş 54 mənzilə də qaz xətti çəkilib.

Rayonda rabitə xidmətinin səviyyəsinin yüksəldilməsi məqsədilə 2017-ci ilin birinci yarısında bir sıra işlər görülüb. Bu dövrdə 183 yeni abonentə telefon xətti çəkilib.

### *İqtisadiyyat yeni inkişaf mütəvisindədir*

Muxtar respublikanın ən böyük bölgələrindən olan Babək rayonunda iqtisadiyyatın inkişafı bu gün ən yüksək önəm verilən sahələrdən biridir. Çünki hər bir babəkli öz həyat səviyyəsinin yaxşılaşmasını iqtisadiyyatın inkişafında görür, dövlətimizin yaratdığı şəraitdən istifadə edərək məhsul bolluğu yaradılmasına çalışır. Bir neçə statistik rəqəmə diqqət yetirsək, babəklilərin çəkdikləri zəhmətin hədər getmədiyini görərik. Bəhs olunan dövrdə Babək rayonunda 2017-ci il məhsulu üçün 16172 hektar sahədə əkin aparılıb. Əkin sahəsinin 10628 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 122 hektarını dən üçün qarğıdalı, 87 hektarını dən üçün günəbaxan, 2093 hektarını tərəvəz bitkiləri, 1511 hektarını ərzaq üçün bostan bitkiləri, 476 hektarını kartof, 77 hektarını birillik otlar, 686 hektarını cari, 492 hektarını isə əvvəlki illərdə əkilmiş çoxillik otlar təşkil edir.

Hazırda bölgənin əkin sahələrində məhsul yığımı davam edir. 1 iyul 2017-ci il tarixə 10628 hektar dənli və dənli-paxlalı bitkilərin əkin sahəsinin 28,2 faizindən 8914 ton məhsul yığılıb. Məhsuldarlıq orta hesabla 29,7 sentner olub. 1 iyul 2016-cı illə müqayisədə yığım sahəsi 1,8, yığılmış məhsul 2,2, məhsuldarlıq 0,3 faiz çoxdur.

476 hektar kartof əkilmiş sahənin 4,6 faizindən 276 ton kartof tədarük edilib. Məhsuldarlıq orta hesabla 125,5 sentner olmuşdur. 1 iyul 2016-cı illə müqayisədə yığım sahəsi və yığılmış məhsul hər iki halda 10 faiz çoxdur.

2093 hektar tərəvəz bitkiləri əkini sahəsinin 2,3 faizindən 506 ton tərəvəz məhsulları yığılıb. Məhsuldarlıq orta hesabla 105,4 sentner olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yığım sahəsi 4,3, yığılmış məhsul 4,8, məhsuldarlıq 0,4 faiz çoxdur.

Barverən meyvə bağlarından 1056 ton məhsul tədarük edilib ki, bu da 1 iyul 2016-cı illə müqayisədə 0,2 faiz çoxdur.

2017-ci ilin birinci yarısında rayonda sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılıb, bu dövrdə 204 fiziki şəxs qeydiyyata alınıb. Sahibkarlıq fəaliyyətinin inkişafı üçün yaradılmış sağlam şərait nəticəsində bu sahə yeni müstəviyə qədəm qoyub.

Əvvəlki illərdə olduğu kimi, 2017-ci ilin ilk altı ayı ərzində də ekoloji tarazlığın qorunması üçün məqsədyönlü tədbirlər həyata keçirilib, yeni meyvə bağları salınıb, yol kənarlarında, qəsəbə və kəndlərdə yaşıllaşdırma işləri görülüb, 3,3 hektar meşəsalma, 1,3 hektar meşəbərpa tədbirləri aparılıb. Bu ərazilərdə 6100 ədəd meyvə, 7500 ədəd meşə, 7000 ədəd həmişəyaşıl, 540 ədəd gül və bəzək kolları olmaqla, ümumilikdə, 21140 ədəd ağac, gül və bəzək kolları, həmçinin 50000 ədəd üzüm çubuğu əkilib.

### *Digər sahələr*

Cari ilin birinci yarısında rayonda əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə tədbirlər həyata keçirilib. Belə ki, rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən şəhid ailələrinə, uşaq müavinətinə, birdəfəlik müavinət alanlara, müharibə veteranlarına, sosial müavinət alanlara cəmi 727 min 272 manat vəsait verilib. Müavinətlər vaxtında çatdırılıb. Bununla yanaşı, 329 ailəyə 217 min 888 manat ünvanlı sosial yardım ödənilib.

Rayonda əlillərin qayğısına qalınıb, onlara müxtəlif ərzaq yardımları verilib, həmçinin rayonda yaşayan əlil və ahıl vətəndaşlardan protez-ortopedik məmulatlara ehtiyacı olanlara səyyar protez-ortopedik xidməti göstərilib, ehtiyacı olan əlil və ahıl vətəndaşlar isə protez məmulatları ilə təmin edilib.

Bəhs olunan dövrdə Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi tərəfindən 2 milyon 172 min manata qarşı 2 milyon 365 min 500 manat məcburi dövlət sosial sığortahaqqı toplanıb.

Rayonda vətəndaşların icbari və könüllü sığortaya cəlb olunması sahəsində də bir sıra işlər görülüb. Belə ki, nəqliyyatın icbari sığortası üzrə 835 müqavilə əsasında 61 min 87 manat, daşınmaz əmlakın icbari sığortası üzrə 2148 müqavilə əsasında 64 min 440 manat, fərdi qəza sığortası üzrə 1935 müqavilə əsasında 16 min 720 manat, ev əmlakının könüllü sığortası üzrə 1184 müqavilə əsasında 10 min 58 manat, kənd təsərrüfatı bitkilərinin sığortası üzrə 574 müqavilə əsasında 4 min 990 manat, sahibkar obyektlərinin daşınmaz əmlaklarının icbari sığortası üzrə 51 müqavilə əsasında 5 min 547 manat, daşınmaz əmlakın istismarının mülki məsuliyyətinin icbari sığortası üzrə 29 müqavilə əsasında 2 min 640 manat sığorta tədiyəsi olmaqla, 6756 müqavilə əsasında 165 min 482 manat sığorta tədiyəsi yığılıb.

2017-ci ilin birinci yarısında əhalinin məşğulluğunun təmin edilməsi qayğısına qalınıb, əmək ehtiyatlarından səmərəli istifadə edilib, əhalinin məşğulluğu diqqət mərkəzində saxlanılıb. Bəhs olunan dövrdə Məşğulluq Mərkəzi tərəfindən 206 nəfər işaxtaran vətəndaş qeydiyyata alınıb, bunlardan 190 nəfəri işlə təmin olunub. Ərazi məşğulluq proqramına uyğun olaraq 32 nəfər işaxtaran vətəndaş müxtəlif peşə kurslarına göndərilib. 2017-ci ilin birinci yarısında rayonda 220 yeni iş yeri açılıb ki, bunun 215-i daimi iş yeridir.

### *Babəklilərlə ayaqüstü söhbət*

Nehrəm bələdiyyəsinin sədri, təcrübəli təsərrüfatçı Tofiq Abutalıbov:

– O yerdə insanın yaşamaq, qurub-yaratmaq əzmi yüksək olur ki, orada insan hərtərəfli qayğı görür. Bu gün fəxrlə deməyə olar ki, rayon sakinlərində belə əzmkarlıq yüksək səviyyədədir. Sevinirik ki, rayonumuz sürətlə inkişaf edir. Burada yeni emal və istehsal müəssisələri açılır, iş yerləri yaradılır. Bu da əhalinin məşğulluğunun təmin olunmasında, daxili bazarda yerli məhsulun xüsusi çəkisinin artırılmasında mühüm əhəmiyyət kəsb edir. Rayonda sahibkarlığın inkişafına geniş meydan verilməsinin nəticəsidir ki, onlarla emal, istehsal və xidmət müəssisəsi fəaliyyət göstərir.

Tarix müəllimi Səfər Məmmədov:

– Muxtar respublikamızda bu gün həyatımızın elə bir sahəsi yoxdur ki, böyük uğurlar qazanılmasın, yüksək nəticələrə nail olunmasın. Babək rayonu da hərtərəfli dövlət qayğısı hesabına günü-gündən gözəlləşməkdədir. Hər il rayonun müxtəlif ünvanlarında geniş yollar salınır, fərdi yaşayış evləri tikilir. Son illər yaşıllıq sahələrinin genişləndirilməsinə diqqət daha da artıb. Müasir işıqlandırma sistemi rayon mərkəzinin gecəsini gündüzə çevirib.

Rayon ağsaqqalı Qürbət Orucov:

– Babək rayonu bu gün muxtar respublikanın digər bölgələri kimi sürətlə inkişaf edir, füsunkar gözəlliyə qovuşur. Bu gözəlliyin asanlıqla başa gəlmədiyini bilirik. Ona görə də hər bir sənət və peşə adamı səy və bacarığını əsirgəməyərək çalışdığı sahədə böyük uğurlara nail olmalı, göstərilən qayğıya əməli işlə cavab verməlidir. Elə bunun üçün də hər cür imkanlarımız var. Bu imkanlardan səmərəli istifadə edən insanlar rayonumuzun, muxtar respublikamızın, nəticə etibarilə, ölkəmizin inkişafına töhfələrini vermiş olacaqlar.

### *Rayon sakinləri nail olduqlarını son hədd saymırlar*

Dünya yaranandan hər açılan sabah həyatın davam etdiyinin göstəricisi olub. Babək rayonunda da hər gün bir yeniliklə müşahidə olunur. Elə ilin ilk 6 ayında əldə olunan qısaca bəhs etdiyimiz yeniliklər 2017-ci ilin Babək rayonuna töhfələridir. Bu yeniliyi yaradanlar Babəkin müasir tarixinə öz imzasını yazan insanlardır. Odur ki, onların əməyi öz yurdunu qəlbən sevən, yaşadıqları yurd yerinin sabah daha gözəl olacağına inanan babəklilər tərəfindən yüksək dəyərləndirilir. Onlar görürlər ki, təşəbbüskarlıq, sabaha cavabdehlik və tapşırılan vəzifəyə məsuliyyət hissi vətəndaşlıq borcuna çevrilən yerdə hər şeyə nail olmaq mümkündür. Bu isə belə deməyə əsas verir ki, qarşıdakı dövrdə Babək rayonunda görülən işlərin həcmi daha çox olacaq, bölgə sakinləri 2017-ci ili böyük uğurlarla başa vuracaqlar.

**Muxtar MƏMMƏDOV**

## Naxçıvan – Azərbaycanın mədəniyyət paytaxtı

***Amerika Birləşmiş Ştatlarının Massachusetts ştatının Boston şəhərində yerləşən, mədəniyyətlər və xalqlar arasında güclü əlaqələr qurmaq naminə fəaliyyət göstərən "Vahid Planet" (www.unitedplanet.org) beynəlxalq qeyri-kommersiya təşkilatının təsisçisi və prezidenti David Santulli bu il avqustun 11-də övladları ilə birlikdə Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur. O, ölkəsinə qayıtdıqdan sonra "Naxçıvan – Azərbaycan mədəniyyətinin paytaxtı" sərlövhəli məqalə yazaraq rəhbərlik etdiyi təşkilatın unitedplanet.org internet saytında yerləşdirmişdir. Həmin məqaləni oxuculara təqdim edirik.***





Mədəniyyətlər və xalqlar arasında güclü əlaqələr qurmaq naminə fəaliyyət göstərən və Amerika Birləşmiş Ştatlarının Boston şəhərində yerləşən "Vahid Planet" ***(www.unitedplanet.org)*** beynəlxalq qeyri-kommersiya təşkilatının təsisçisi və prezidenti kimi mənim həm peşəkar, həm də ailəmlə birlikdə dünyanı gəzmək imkanım oldu.

Bu yaxınlarda mən övladlarım Troy və Tristan ilə birlikdə "Natig Travel" turizm şirkətinin dəstəyi ilə Naxçıvana səfər etdik və bundan çox məmnun olduq. Belə ki, səfər etdiyimiz ən möhtəşəm yerlərdən biri olan Naxçıvan təbii gözəllikləri, qədim tarixi və qonaqpərvər insanları ilə zəngin diyardır. Türkiyə, İran və Ermənistan arasında yerləşən Naxçıvan nəinki Azərbaycanın, ümumilikdə bütün Asiyanın mədəniyyət paytaxtıdır. Azərbaycan Respublikasına səfəri Naxçıvana səyahət etmədən tamamlanmış hesab etmək olmaz. Naxçıvan həmçinin Nuh Peyğəmbərin vətəni kimi tanınır. Rəvayətə görə Nuh Peyğəmbərin gəmisi dünya daşqını zamanı üzərək ərazidəki möhtəşəm Haçadağa dəyib. Yerli əhali həmçinin iddia edir ki, burada olan duz şaxtaları da ərazinin su altında qaldığını təsdiq edir.

Duz mədənlərində fəaliyyət göstərən müalicə ocağı xüsusi hava xüsusiyyətləri ilə yaxın və uzaqdan gələn qonaqları qəbul edir. Bir zamanlar Naxçıvan həm Duz Yolları, həm də Qədim İpək Yolunun mərkəzində yerləşmişdir. YUNESKO buradakı ipək istehsalı sənətini mədəni xəzinə elan etmişdir.

Naxçıvan ərazisindəki möhtəşəm dağlar, çaylar, göllər və geniş vadilər Dünya tufanına şahidlik etmiş, bu gün isə özlərində keçmişin izlərini qeyri-adi şəkildə yaşadırlar. Dağın üstündə olan qədim Əlincə qalası, incə qüllələr və romantik əfsanə dolu XII əsrə aid Möminə xatın türbəsi, saraylar, məscidlər və dini ərazilər, xüsusilə Əshabi-Kəhf ziyarətgahı Naxçıvandakı inanılmaz xəzinələrdən bir neçəsidir.

Qeyd etməliyəm ki, ailəmlə birlikdə səfərim müddətində Naxçıvanda dərin hörmətlə qarşılandım. Lakin bəzən elə məqamlar oldu ki, onları xüsusi qeyd etməliyəm. Belə ki, hər dayandığımız ərazidə yerli insanlarla söhbət etdik, qarşılıqlı məlumatlar paylaşdıq, onların xoş münasibətlərinin şahidi olduq. Tanımadığımız bir yerdə əcnəbi vətəndaş kimi, bu cür gözəl qarşılanmaq bizi çox sevindirdi.

Yaponiyalı şair Ryunosuke Satoro demişdir: "Tədqiqat hikmət köküdür". Naxçıvana səfər etməklə biz öz dünyagörüşümüzü zənginləşdirdik, eləcə də Naxçıvanın yaşadığımız dünyanın mədəni və təbii naxışı olmasını öyrəndik, necə deyərlər, bunun şahidi olduq. Biz "Natig Travel" şirkəti və Naxçıvan əhalisinə alicənablıqlarına və qonaqpərvərliklərinə görə minnətdarıq. İnanıryq ki, öz dövründə bura səfər edən Nuh Peyğəmbər kimi, ərazi ilə maraqlanan səyahətçilər Naxçıvana səfər etsələr, onların həyat haqqında fikirləri dəyişə bilər.

*Axtarışlar, tapıntılar*

## Naxçıvanda ilk dövlət muzeyinin qurucularından biri – *Mirbağır Mirheydərzadə*




***XIX əsrin sonu, XX əsrin əvvəlləri tarixə Azərbaycanda maarifçiliyin intibah dövrü kimi daxil olmuşdur. Həmin dövrdə qədim Naxçıvan diyarı da Azərbaycana çoxlu görkəmli şəxsiyyətlər, vətənpərvər övladlar bəxş etmişdir. Vətənini sevən, yaşadığı torpağa bağlı olan vətənpərvər övladlardan biri də Mirbağır Mirheydər oğlu Mirheydərzadə olmuşdur. Anadan olmasının 140 illiyi tamam olan bu maarifpərvər ziyalı mənalı həyatının 15 ilə yaxın bir dövrünü Naxçıvanda muzey quruculuğu işinə həsr etmişdir.***



Mirbağır Mirheydərzadə 1877-ci ildə Ordubad rayonunun Nürgüt kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Bir neçə il sonra onun ailəsi köçüb Naxçıvan şəhərinə gəlir. 1887-1896-cı illərdə Naxçıvan şəhər mədrəsəsində təhsil alan bu gənc 1899-cu ildə Təbriz ruhani məktəbində təhsilini başa vurur. Naxçıvanda münasib iş tapa bilmədiyindən Tiflisə gedən gənc Mirbağır burada inqilabi əhvali-ruhiyyəli adamlarla tanış olur və onlarla tez-tez görüşür.

XX əsrin ilk illərində Rusiyanın, Ukraynanın mərkəzi şəhərlərində, Bakıda, Tiflisdə və digər yerlərdə cərəyan edən ictimai-siyasi prosesləri diqqətlə izləyən Mirbağır Mirheydərzadə yavaş-yavaş ruhanilikdən uzaqlaşaraq siyasətlə məşğul olur, bu fəaliyyətinə görə dəfələrlə təqiblərə məruz qalır, həbsxanaya salınır.

Mütərəqqi fikirli Mirbağır Mirheydərzadə siyasi fəaliyyəti ilə şah və çar üsul-idarəçiliyinə qarşı mübarizə aparmaqla bərabər, 1918-1919-cu illərdə erməni daşnaklarına və ingilis-amerikan müdaxiləsinə qarşı da geniş fəaliyyət göstərmişdir. 1918-ci ilin iyul ayında erməni daşnakları Nehrəmə hücum etdiyi vaxtlarda Mirbağır Mirheydərzadə nehrəmlilərə silah və hərbi sursat göndərməklə kəndin müdafiəçilərinə dəstək vermişdir. O, eyni zamanda tarix, dil-ədəbiyyat, coğrafiya və astronomiya elmləri ilə də dərindən maraqlanır, rus, ərəb və fars dillərini mükəmməl bilirdi.

1920-ci ildə Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarında sovet hakimiyyəti bərqərar olduqdan sonra M.Mirheydərzadənin fəaliyyəti, əsasən, Naxçıvanın tarixi, bu ərazidəki qədim abidələrin və yer adlarının öyrənilməsi, arxeoloji materialların, folklor nümunələrinin toplanması və tədqiqi ilə bağlı olmuşdur.

Həmin dövrdə Naxçıvanda heç bir elmi müəssisə, idarə və təşkilat olmadığından o, müstəqil surətdə tədqiqat işləri ilə məşğul olur, Naxçıvanın tarixini və coğrafiyasını öyrənirdi.

1923-cü ildə Bakıda Azərbaycanı Öyrənən Tədqiq və Tətəbbö Cəmiyyətinin, 1924-cü ilin oktyabrında Naxçıvanda Xalq Komissarları Sovetinin qərarı ilə Naxçıvan Tarix-Etnoqrafiya Muzeyi, 1925-ci ilin may ayında isə Azərbaycanı Öyrənən Tədqiq və Tətəbbö Cəmiyyətinin Naxçıvan təşkilatı yaradılır. Təsis yığıncağında M.Mirheydərzadə cəmiyyətin elmi katibi vəzifəsinə seçilmiş və 1928-ci ilin ortalarınadək bu vəzifədə çalışmışdır. Cəmiyyətin 1925-1928-ci illərdəki fəaliyyəti dövründə keçirilmiş iclas protokollarının təhlilindən aydın olmuşdur ki, cəmiyyətin üzvləri, xüsusilə onun elmi katibi M.Mirheydərzadə Naxçıvanda muzey quruculuğu işində fəal iştirak etmişlər.





Naxçıvanı Öyrənən Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyətini müəyyən mənada əks etdirən iclas protokollarının təhlilindən aydın olur ki, cəmiyyət Naxçıvan Tarix-Etnoqrafiya Muzeyinin fəaliyyəti ilə daim maraqlı olmuşdur. Protokollardan o da məlum olur ki, həmin iclaslarda Naxçıvan Tarix-Etnoqrafiya Muzeyi ilə bağlı məsələlər müzakirə edilmiş və müvafiq qərarlar qəbul olunmuşdur. Müzakirədə qəbul olunan qərarlarda Naxçıvan Tarix-Etnoqrafiya Muzeyinin zənginləşdirilməsi, həmin dövrlərdə Naxçıvana gəlmiş arxeoloq və etnoqrafların Xaraba Gilandan, Qızılburundan və Şahtaxtı Govur qalasından əldə etdikləri maddi-mədəniyyət nümunələrinin, onların fotoşəkillərinin, həmçinin həmin arxeoloq və etnoqrafların tərtib etdikləri hesabatların nüsxələrinin muzeyə verilməsi nəzərdə tutulurdu.

Faktlardan göründüyü kimi, ötən əsrin 20-ci illərinin ortalarından etibarən Naxçıvan tarixinin öyrənilməsində və bu tarixi özündə yaşatmağa başlayan Naxçıvan Tarix-Etnoqrafiya Muzeyinin (indiki Naxçıvan Dövlət Tarix Muzeyinin) təşəkkülündə və inkişafında Tədqiq və Tətəbbö Cəmiyyətinin, xüsusilə onun elmi katibi olmuş M.Mirheydərzadənin əvəzsiz rolu olmuşdur.

O dövrdə qazanılan əsas uğurlu nəticə ondan ibarət olmuşdur ki, həmin dövrlərdə bir çox yerlərdən və xüsusilə Rusiyadan gəlmiş arxeoloqların Naxçıvanda apardıqları qazıntı işləri zamanı əldə olunan maddi-mədəniyyət nümunələrinin hamısının olmasa da, bir qismi muzeyə verilərək onların Azərbaycandan çıxarılmasının qarşısı alınmışdır.

Mirbağır Mirheydərzadə Naxçıvan partiya-sovet məktəbində ölkəşünaslığa dair fənni tədris etmiş, eyni zamanda elmi-tədqiqat sahəsində də geniş fəaliyyət göstərmiş, Rusiyanın Moskva, Leninqrad (indiki Sankt-Peterburq) şəhərlərindən və Bakıdan Naxçıvana gələn tədqiqatçılara bələdçilik etmişdir.

Mirbağır Mirheydərzadə Naxçıvan MSSR Xalq Maarif Komissarlığının 1930-cu il 27 avqust tarixli 362 saylı əmri ilə Naxçıvan Tarix-Etnoqrafiya Muzeyinə direktor təyin olunmuş və 1944-cü ilin yazınadək bu vəzifədə çalışmışdır. Onun muzey direktorluğunun ilk illərində bu mədəniyyət müəssisənin adı dəyişdirilərək Naxçıvan Tarix-Ölkəşünaslıq Muzeyinə çevrilmişdir. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və Rəyasət Heyətinin 1932-ci il 26 avqust tarixli iclasında "Naxçıvan Ölkəşünaslıq Muzeyi" haqqında məsələ müzakirə olunmuşdur. İclasda Azərbaycan Dövlət Tarix Muzeyinin hazırladığı plan əsasında Naxçıvan Ölkəşünaslıq Muzeyinin tamamilə yenidən təşkil edilib başa çatdırılması, bununla əlaqədar Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən iki nəfər muzey işçisinin kömək üçün Naxçıvana ezam edilməsi ilə bağlı qərar qəbul edilmişdir. Dövlət və təsərrüfat təşkilatlarının sərəncamında olan bütün muzey eksponatlarının Naxçıvan Dövlət Tarix-Ölkəşünaslıq Muzeyinə verilməsi də həmin qərarda öz əksini tapmışdır. 1932-ci ilin oktyabrında qısa zamanda yenidən təşkil olunan Naxçıvan Dövlət Tarix-Ölkəşünaslıq Muzeyi yeni eksponatlarla muxtar respublika sakinlərinin istifadəsinə vermişdir. Yarandığı ilk illərdə muzeyin 250-yə qədər eksponatı olduğu halda onların sayı artırılaraq 1932-ci ildə 2520-yə, 1940-cı ildə isə 4880-ə çatdırılmışdır. Təkcə 1940-cı ildə muzeyə gələn tamaşaçıların sayı 6 min nəfərdən çox olmuşdur. Bütün bu faktlar və rəqəmlər M.Mirheydərzadənin muzeydəki səmərəli fəaliyyətindən xəbər verir.

Araşdırmalardan aydın olur ki, 30-cu illərin repressiya dalğaları M.Mirheydərzadədən də yan keçməyib. XX əsrin əvvəllərindəki siyasi fəaliyyətinə görə o da başqaları kimi xüsusi xidmət orqanlarının təqiblərinə məruz qalmışdır.

1941-1945-ci illər müharibəsi bütün sahələrdə olduğu kimi, Naxçıvanda muzey quruculuğu sahəsində nəzərdə tutulan tədbirləri də yarımçıq qoymuş, muzeydə işlərin səngiməsinə səbəb olmuşdur.

*Tanınmış muzey qurucusu 1956-cı il yanvar ayının 10-da vəfat etmiş və Naxçıvan şəhər qəbiristanlığında dəfn edilmişdir.*

**Nizami RƏHİMOV**
***Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru***

## Növbəti arxeoloji araşdırmalara başlanılıb

Bu ilin avqust ayından başlayaraq Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyası AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev və Katerina Marronun rəhbərliyi ilə növbəti arxeoloji araşdırmalara başlayıb. Arxeoloji ekspedisiyanın əsas məqsədi qədim əkinçilik mədəniyyətlərinin formalaşması prosesini və insanların ətraf aləmlə tanışlığını öyrənmək, iqtisadi-mədəni əlaqələrin istiqamətini müəyyənləşdirməkdən ibarətdir.

Xatırladaq ki, tədqiqatların aparıldığı ilk günlərdə Eneolit dövrünün erkən mərhələsinə aid yaşayış yeri aşkar edilib. Bu, elmi ictimaiyyətin böyük marağına səbəb olub. Yaşayış yerinin keramika məmulatları arasında boyalı qablar da vardır. Maddi-mədəniyyət nümunələri ölkəmizin qədim sakinlərinin Yaxın Şərq ölkələri ilə əlaqələrini öyrənməyə, Eneolit dövrünün ardıcıl inkişaf mərhələlərini müəyyənləşdirməyə imkan verir.

Tədqiqat zamanı aşkar olunan maddi-mədəniyyət nümunələrinin bir qismi obsidian alətlərdən ibarətdir. Hazırda araşdırmalar davam etdirilməkdədir. Aşkar edilən maddi-mədəniyyət nümunələri Azərbaycan, Fransa, Almaniya, İtaliya, Türkiyə, Macarıstan və Avstraliyadan gələn mütəxəssislər tərəfindən tədqiq edilməkdədir.

**Xəbərlər şöbəsi**

*Həkim məsləhəti*

## Qarpız kəsdim, yeyən çox...

***Muxtar respublikamızda yenə bostan məhsulları bolluğudur. Torpaq mülkiyyətçiləri üçün yaradılmış şərait öz bəhrəsini verir. Bazar və yarmarkalarda, ticarət şəbəkələrində, yol kənarlarında qovun-qarpız həm alıcı üçün, həm də satıcı üçün əlverişli qiymətə satılır. Alan da razıdır, satan da. Bununla yanaşı, unutmaq olmaz ki, bostan məhsulları ilə düzgün qidalanma sağlamlığın başlıca şərtidir. Bu sahədə əhalinin maarifləndirilməsinin zərurətini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi Reanimasiya şöbəsinin bölmə müdiri Leyla Əsgərova ilə həmsöhbət olduq:***

*–Leyla həkim, indi yay süfrəsini qarpızsız təsəvvür etmək olmur. Düzgün qidalanmada qarpızın rolu nədən ibarətdir?*

– Yay aylarının ən çox istifadə edilən giləmeyvələrindən olan qarpız su (çəkinin 80 faizinə qədər), fruktoza, saxaroza, mikroelementlər və təbii sellülozdan ibarətdir. Fruktoza qlükozadan fərqli olaraq hətta şəkərli diabet xəstəliyindən əziyyət çəkən insanlara da heç bir mənfi təsir göstərmir.

Qarpız insan orqanizmini daxildən, sözün tam mənasında, "yuyur", bu səbəbdən ürək-damar və oynaq xəstəliklərindən əziyyət çəkən insanlara çox faydalıdır. Qarpız şirəsi qaraciyərə orqanizmdən toksinləri yuyub aparmaq üçün də kömək edir. Onun tumları bağırsaqları qurdlardan təmizləyir. Tərkibində maqnezium mikroelementinin miqdarına görə qarpız badamdan sonra ikinci yeri tutur. Qidada maqneziumun xroniki çatışmazlığı təzyiqin artmasına gətirib çıxarır. Bundan əlavə, maqnezium böyrəklərdə daşların əmələ gəlməsinin qarşısını alır, bağırsaqların fəaliyyətini yaxşılaşdırır, qanda xolesterinin səviyyəsini azaltmağa kömək edir və ödqovucu təsirə malikdir. Maqneziumdan əlavə, qarpız kalium elementi ilə də zəngindir. Kalium ürəyin normal fəaliyyəti üçün çox vacibdir.

Qarpızda dəmir mikroelementi də vardır. Bu səbəbdən qarpız qanazlığından əziyyət çəkən insanlara yaxşı kömək edir. Arıqlamaq istəyənlər qarpız yeyə bilərlər. Qarpızda kalorinin az olmasına baxmayaraq, o, tez bir zamanda insanda toxluq hissi yaradır.



*– Qarpız həm də damarları aterosklerozdan qoruyur.*

– Alimlər qarpızın yeni, əvvəllər məlum olmayan xassəsini aşkara çıxarıblar. ABŞ-da aparılan tədqiqatlar göstərir ki, qarpız aterosklerozun (ürək-damar sistemi xəstəliyi) inkişaf riskini azaldır. Bu, arteriyaların divarlarının bərkiməsi və onların elastikliyinin itməsinin xarakterik olduğu və sonradan orqanların qanla təchiz olunmasının pozulduğu xroniki xəstəlikdir.

*– Xeyirli cəhətlərinə baxmayaraq, qarpızın həddindən artıq yeyilməsi xoşagələn nəticələr vermir.*

– Həqiqətən də, düzgün seçilməmiş qarpız insanın səhhəti üçün təhlükəli ola bilər. Zəhərlənmələrin səbəbi isə ondan ibarətdir ki, qarpız yetişdirilməsi zamanı tez-tez nitrat tərkibli gübrələrdən istifadə olunur. Bu nitratlar insanların, xüsusən də uşaqların orqanizmi üçün təhlükəlidir. Genetik modifikasiyaya uğramış qovun-qarpızın xeyrindən çox zərəri vardır. Daxili bazarın belə məhsullardan qorunması həm də əhalinin sağlamlığının qorunması deməkdir. Qeyd olunmalıdır ki, mövsümün indiki qaynar çağında bostan-tərəvəz məhsullarından zəhərlənmə hadisəsinə görə bizim mərkəzə müraciət edənlərin sayı ildən-ilə azalır. İyul ayının ötən günlərində qarpızdan zəhərlənmə ilə bizim mərkəzə cəmi 12 nəfər müraciət etmiş və ambulator müalicə alaraq evə buraxılmışdır. Qarpızdan lazımi qədər istifadə edilməsi məsləhətdir. "Xeyirdir", – deyə həddindən artıq qəbul etmək olmaz. Bu, iri böyrəkdaşı olan xəstələrdə narahatlığa gətirib çıxarır. Qarpızı çox vaxt yeməkdən sonra qəbul edirik. Bu, düzgün deyil. Yeməkdən dərhal sonra yeyilən qarpız köp əmələ gətirir. Xeyirli xüsusiyyətlərinin daha çox hiss olunması üçün qarpızı, əsasən, acqarına yemək məsləhətdir. Ona görə də onu yeməkdən ya çox əvvəl, ya da çox sonra qəbul etmək lazımdır.

*– Ekoloji cəhətdən saf, orqanizm üçün faydalı qarpız seçərkən nələri bilmək lazımdır?*

– Bunun üçün bizim məsləhətlərimizdən istifadə edə bilərsiniz:

-qarpızı iyunda-iyulda yox, avqust-sentyabr aylarında almaq lazımdır;

-yaxşı qarpız Günəş şüalarının altında parıldayır;

-qarpızın üzərində çatlar və əzilmiş yerlər olmamalıdır. Bu zədələnmiş yerlərdən qarpıza təhlükəli mikroblar daxil ola bilər və bu mikroblar insanlarda kəskin bağırsaq infeksiyaları törədə bilər;

-qarpız alanda heç bir halda onu kəsdirməyin;

-qarpızın üzərində sarı ləkənin olması onun sübut edir ki, qarpız tam və təbii qaydalara uyğun yetişib. Əgər belə ləkə çox böyük olarsa, deməli, bu qarpıza Günəş şüaları çatmayıb və bunun dadı da yaxşı olmayacaqdır;

-qarpızı seçəndə orta ölçüyə (5-7 kiloqram) üstünlük verin;

-qarpızı evə gətirdikdən sonra suya salın. Yaxşı dəymiş qarpız suyun üzərində üzəcək, dəyməmiş isə batacaq.

**Hüseyn ƏSGƏROV**

## Kukla teatrı balacaları bir-birindən maraqlı tamaşalarla sevindirir

*Psixoloqların yeni tədqiqatlarının nəticələrinə görə, uşaqlar maraqlı oyun prosesində əldə etdikləri bilikləri daha yaxşı mənimsəyirlər. Söhbət təkcə akademik biliklərdən yox, həm də mənəvi-etik məsələlərdən gedir. Uşaqlar səhnədə personajlarla birgə həyəcan keçirərək rolları aktyorlarla birgə yaşayır və həyati vəziyyətlər onların şüurunda həkk olunur.*

Bəli, kukla teatrı uşaqda həyati proqram formalaşdıran son dərəcə mühüm məfhumdur. Uşaqları kukla teatrına aparmaq, onlarla birgə getmək, baxılan tamaşaları mütləq müzakirə etmək çox vacibdir. Axı onlar gördüklərinə tənqidi yanaşa bilmirlər. Buna görə də böyüklər səhnədə baş verənlərə qiymət verərkən ehtiyatlı və təmkinli olmalıdırlar. Çünki uşaq böyüyün mövqeyini qavraya bilmir. Buna görə də ehtiyatsız olaraq deyilən söz uşağın səhnədəki sehrli aləm haqqında münasibətini dəyişə bilər.

Görkəmli maarifçi M.T.Sidqinin adını daşıyan Naxçıvan Dövlət Kukla Teatrı uşaqların ən çox üz tutduğu məkanlardandır. Teatrın kollektivi hər həftənin şənbə günü müxtəlif tamaşalarla uşaqların görüşünə gəlir, bir-birindən maraqlı səhnə əsərləri ilə onları sevindirə bilir.

Avqustun 1-də teatr mövsümü başa çatdı. Ötən mövsüm Naxçıvan Dövlət Kukla Teatrı bir-birindən maraqlı tamaşaları ilə balaca teatrsevərləri sevindirdi. Belə ki, ötən mövsümdə teatrın səhnəsində Nağı İsmayılzadənin "Ağca və Bozca", Zaur Vedilinin eyniadlı Azərbaycan xalq nağılının motivləri əsasında yazdığı "Şahzadə Bəndalı", "Meşə macəraları", "Çalıb çağlayan ağac", Eynəlibəy Sultanovun 150 illik yubileyi münasibətilə Səbuhi Hüseynovun pyesi əsasında səhnələşdirilən "Seymurun sirli dünyası", Kəmalə Ağayevanın "Göyçək Fatma", "Sirli sözlər", Ağaxan Salmanlının "Niyyət açarı" və başqa tamaşalar maraqla qarşılandı.



Bəs gələn mövsüm teatr hansı tamaşalarla balacaların görüşünə gələcək? Elə bu suala cavab tapmaq üçün yolumuzu adıçəkilən ünvandan saldıq. Teatrın direktoru, Azərbaycan Respublikasının Xalq artisti Şirzad Abutalıbov bizimlə söhbət zamanı bildirdi ki, teatr kollektivi yeni mövsümdə maraqlı tamaşalarla balacalara sevinc bəxş edəcək. Belə ki, yeni mövsümdə balaca teatrsevərləri Əyyub Abbasovun "Keçinin qisası", Şirzad Abutalıbovun ərəb xalq nağılı əsasında səhnələşdirdiyi "Ələddinin sehrli çırağı", rus xalq nağılı əsasında hazırlanan "Qoğalın sərgüzəşti" və başqa tamaşalar gözləyir.

Tamaşaya qoyulan əsərlər, əsasən, vətənpərvərlik, dürüstlük, ədalət, böyüklərə hörmət ruhunda yazılan pyeslərdir. Tamaşa üçün elə əsərlər seçilir ki, onlar uşaqların düzgün tərbiyəsinə, gələcəkdə cəmiyyətə faydalı vətəndaş kimi formalaşmasına köməklik etsin. Milli adət-ənənələrimizin öyrənilməsi, Vətənə, xalqa məhəbbət hissləri hər zaman ön plana çəkilir. Kukla teatrı fəaliyyətə başladığı vaxtdan etibarən uşaqlarda bu teatra qarşı həvəs yaratmaq məqsədilə bir çox tədbirlər həyata keçirir. Belə ki, hər il teatrın kollektivi muxtar respublikanın bölgələrində müxtəlif tamaşalarla balaca teatrsevərlərin qonağı olur. Bu tədbirlər gələn mövsümdə də davam etdiriləcək.

**Nail ƏSGƏROV**

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunmaq üçün qanvermə aksiyalarının təşkilini davam etdirir.***

## Könüllü qanvermə aksiyası keçirilib

Növbəti belə nəcib və humanitar aksiya avqustun 16-da Naxçıvan Muxtar Respublika Xəstəxanasında baş tutub. Əsaslı təmir və yenidənqurma işlərindən sonra burada keçirilən ilk qanvermə aksiyasında Naxçıvan Muxtar Respublika prokurorluq orqanlarının əməkdaşları iştirak ediblər.

Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. "Qan ver, yaşat" devizi altında keçirilən qanvermə aksiyasında Naxçıvan Muxtar Respublika prokurorunun köməkçisi Emil Abdullayev bildirib ki, başqalarının yaşaması üçün imkanımız daxilində olanı, əlimizdən gələni etmək həyatda ən vacib və gərəkli əməllərdən biridir. İnsan ən böyük məmnunluq hissini qan verməklə hansısa xəstənin yaşamasına dayaq durmaqda tapır. Bu il ikinci dəfədir ki, könüllü olaraq qan verirəm.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Müraciətlərə baxılması şöbəsinin prokuroru, kiçik ədliyyə müşaviri Pərvanə Hüseynova da qan verməklə çox böyük mənəvi rahatlıq hissi keçirdiyini vurğulayıb. O deyib ki, əgər, sənin verdiyin qan kiminsə həyata qovuşdurur, kiminsə qəlbində sevinc, üzündə təbəssüm yaradırsa, onda insan fərəh hissi keçirir. Bundan savab nə ola bilər? Yaşayırsan və kiminsə yaşaması üçün yardımçı olursan. Qan vermək donorun özü üçün də sağlamlıqdır. Ona görə mən də həmişə ətrafımda olanlar arasında bunu təbliğ edir və onları donor mədəniyyətinə yiyələnməyə çağırıram.

Donorların müayinəsini və qan götürülməsini həyata keçirən Mərkəzi qan bankı şöbəsinin müdiri Məmmədəli Həsənov isə ölkəmizdə qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən layihələrdən danışıb. Şöbə müdiri Mərkəzi qan bankının bu ayın əvvəlindən fəaliyyətə başladığını xatırladaraq qısa müddətdə görülən işlərdən danışıb. O bildirib ki, müalicə-profilaktika müəssisəsi qan, qan komponentləri və preparatları, qanəvəzedicilərlə, donor və xəstələrin qanlarının tipləşdirilməsi üçün reagentlərlə təmin edilməsi, donorların komplektləşdirilməsi, uçotu və tibbi müayinədən keçirilməsi, müəssisənin müalicə həkimləri ilə birlikdə xəstə qohumlarının, dostlarının və tanışlarının donorluğa cəlb edilməsi, donorlar haqqında məlumatın vahid donor registrinə təqdim edilməsi və digər funksiyaları yerinə yetirəcəkdir. Bu məqsədlə qan bankı lazımi tibbi avadanlıq, qan torbaları və qanı yoxlamaq üçün reaktivlərlə təmin edilib.

Bir neçə saat davam edən aksiyada prokurorluq orqanlarının 27 əməkdaşı könüllü olaraq qan verib. Onlardan götürülən 13,5 litr qan Mərkəzi qan bankına təhvil verilib.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Beynəlxalq turnirdə daha bir uğur

*İran İslam Respublikasının Urmiya şəhərində keçirilən karate-do üzrə XIII Beynəlxalq Dostluq və Həmrəylik turnirinə yekun vurulub.*

10 ölkənin 320 idmançısının mübarizə apardığı beynəlxalq turnirdə Azərbaycan yığma komandası da 50 karateçi ilə təmsil olunub. Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 3 yetirməsi isə millimizin heyətində qonşu ölkəyə yollanıb.

Beynəlxalq turnirdə Azərbaycan yığma komandası, ümumilikdə, 14 medal qazanıb ki, bunun da biri Naxçıvan karateçilərinin payına düşür. Belə ki, 14-15 yaşlı idmançıların mübarizəsində 52 kiloqram çəki dərəcəsində tatami üzərinə idmançımız İmran Həsənov çıxıb. O, yarımfinal mərhələsinə kimi məğlubiyyətsiz irəliləyib. Bu mərhələdə məğlub olan İmran Həsənov beynəlxalq turniri üçüncü pillədə başa vurub.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunub.

Qeyd edək ki, Karate-do Federasiyasının yetirmələrini qarşıda daha bir beynəlxalq turnir gözləyir. Belə ki, 22-26 avqust tarixlərində Türkiyənin Ərzurum şəhərində ənənəvi turnir keçiriləcək. Federasiya bu yarışda bir qız olmaqla, 5 idmançı ilə iştirak edəcək.

## Zəka sahibləri rayon birinciliyi uğrunda mübarizə aparıblar

***Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Uşaq-gənclər şahmat məktəbi və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkil etdiyi şahmat üzrə rayon birinciliyinə yekun vurulub.***



Birinciliyin açılış mərasimində çıxış edən rayon Gənclər və İdman İdarəsinin rəis əvəzi İdris Qəhrəmanov, Uşaq-gənclər şahmat məktəbinin direktoru Əli Gülmalıyev yarış iştirakçılarına tədbir barədə geniş məlumat verib, onlara uğurlar arzulayıblar.

Yeddi turdan ibarət olan və İsveçrə sistemi üzrə keçirilən birinciliyin yekun nəticəsinə əsasən Nuray Quluzadə qalib olub. O, 7 maksimum xalın 6,5-ni toplayıb. 6 xalla Hüseyn Həseynli ikinci, 5,5 xalla Fərid Kərimli isə üçüncü olublar.

Sonda qaliblərə yarışın təşkilatçılarının diplom və hədiyyələri təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Salmanlı Qulu Rafiq oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 652